Azərbaycan Ordusu - 100 2018

# "Hər birimiz Vətənə xidmət edirik" adlı yazı müsabiqəsinin qalibləri mükafatlandırıldı

*Müdafiə Nazirliyinin və Mətbuat Şurasının Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə "Hər birimiz Vətənə xidmət edirik" mövzusunda elan etdiyi yazı müsabiqəsinin qaliblərinin iyunun 25-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində mükafatlandırılması mərasimi keçirildi.*



Müsabiqənin məqsədi Azərbaycan Ordusunda həyata keçirilən genişmiqyaslı islahatların, qoşun növlərində və qismlərində əldə olunan nailiyyətlərin, tətbiq edilən qabaqcıl təcrübənin, hərbi hissələrdə aparılan tikinti-quruculuq işlərinin, hərb işinin müxtəlif sahələrində qazanılan uğurların, eləcə də hərbi mövzuları əks etdirən digər məsələlərin kütləvi informasiya vasitələrində obyektiv işıqlandırılması, təbliği, habelə ictimaiyyətlə ordu arasında əlaqələrin daha da genişləndirilməsini təmin etməkdir.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Silahlı Qüvvələrin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirdi ki, yazı müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncamından irəli gələn tapşırıqların icrası ilə bağlı keçirilib.

General-mayor Rasim Əliyev Ali Baş Komandanın diqqət və qayğısı sayəsində son illər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi hissə və bölmələrin maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən geniş islahatlardan danışdı, kütləvi informasiya vasitələri ilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırdı, ordu quruculuğu məsələlərində obyektivliyin və şəffaflığın təmin edilməsi baxımından bu müsabiqənin əhəmiyyətini xüsusi vurğuladı.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov da öz növbəsində Silahlı Qüvvələrin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik etdi və sona çatan müsabiqənin ordu-media əməkdaşlığının intensivləşməsinə, səmərəliliyin artırılmasına, cəmiyyətdə vətənpərvərlik təbliğatının gücləndirilməsinə təsir göstərdiyini qeyd etdi.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri polkovnik Vaqif Dərgahlı müsabiqə haqqında məlumat verdi. Bildirdi ki, müsabiqəyə 70-ə yaxın məqalə təqdim olunub.

Müsabiqəyə martın 30-dan iyunun 10-dək olan müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında dərc edilən yazılar buraxılıb. Təqdim olunan yazılarda üstünlük mövzunun dolğun əhatə edilməsinə, faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyətinə, ifadə vasitələrinin zənginliyinə, oxucu üçün informativlik dərəcəsinə, müqayisəli təhlil üslubundan istifadəyə verilib.

Qeyd edildi ki, müsabiqəyə təqdim olunan yazılar diqqətlə yoxlanıldıqdan sonra qaliblər müəyyənləşdirilib.

Tədbirin sonunda müsabiqənin qalibləri mükafatlandırıldı.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**